İNKIŞAF MƏRHƏLƏLƏRİ

Azərbaycan Qiymətləndiricilər Palatasının yaradılması və inkişafı aşağıdakı əsas mərhələlər üzrə təqdim edilir.

I mərhələ: Hüquqi təməlin yaradılması 2023–2024

8 dekabr 2023-cü ildə yeni "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun qəbul edildi. Qanunun 18-ci maddəsi Palatanın hüquqi statusunu, 27-ci maddəsi isə onun təsisinə keçid mexanizmini müəyyən etdi. Qanunun əsas müddəalarının qüvvəyə minməsi 1 iyul 2024-cü il üçün nəzərdə tutuldu (26.1-ci maddə).

II mərhələ: Təsisə hazırlıq və peşəkar sertifikatlaşdırma 2024

Qanunun 27.1-ci maddəsi üzrə təşkilat komitəsi və qiymətləndirici ixtisas imtahanları ilə bağlı hazırlıq mexanizmi müəyyən edildi. Palatanın fəaliyyət hesabatına görə, ilk ixtisas imtahanı 27 oktyabr 2024-cü ildə keçirildi.

III mərhələ: Palatanın təsis edilməsi 30 noyabr 2024

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il 8 dekabr tarixli "Qiymətləndirmə fəaliyyəti haqqında" 1052-VIQ nömrəli Qanunu təsdiqlədikdən sonra, həmin qanunun tətbiqi barədə 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərman imzalamışdır. Fərmanın 2.3.2-ci yarımbəndinə əsasən, Palatanın təsisi ilə bağlı təşkilati məsələlərin həlli Nazirlər Kabinetinə həvalə edilmişdir.

Prezidentin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov 2024-cü il 7 mart tarixli 133s nömrəli Sərəncam imzalamışdır. Sərəncamla Palatanı təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, təsis yığıncağının hazırlanması və keçirilməsinin təmin edilməsi məqsədilə dövlət qurumlarının nümayəndələrindən ibarət İqtisadiyyat və Maliyyə nazirliklərinin iştirakı ilə Təşkilat Komitəsi formalaşdırılmışdır.

Palatanın təsis konfransında rəhbər orqanlar, Rəyasət Heyəti və İntizam Komissiyası seçildi. Beləliklə, qanunla nəzərdə tutulmuş peşə özünüidarəetməsi orqanlarının ilkin təşkilati çərçivəsi formalaşdırıldı.

IV mərhələ: Rəsmi fəaliyyət və təşkilati quruculuq yanvar 2025

Qanunun 27.1.4. saylı maddəsinə əsasən (Qiymətləndiricilər Palatası təsis edilərək dövlət qeydiyyatına alındıqdan sonra Qiymətləndiricilər Palatası, onun Rəyasət Heyəti və Qiymətləndiricilərin İntizam Komissiyası fəaliyyətə başlamış hesab olunur) 27 yanvar 2025-ci il Palatanın rəsmi fəaliyyətin başlanması tarixi kimi sayılır. Bu mərhələdə üzvlük və reyestr mexanizmləri, icra strukturu, qəbul və müraciətlərin təşkili üzrə fəaliyyət genişləndirilib.

V mərhələ: Metodoloji, tədris və institusional əməkdaşlıq 2025

Qanunun 18.4.2, 18.4.11, 19.2.2 və 20.2.6-cı maddələrinin müəyyən etdiyi funksiyalar çərçivəsində metodoloji təminat, peşəkar təlim və informasiya fəaliyyəti genişləndirildi. Palatanın birillik hesabatında sahəvi metodologiyalar, IVS 2025 tərcüməsi, peşəkar təlimlər və dövlət qurumları ilə əməkdaşlıq qeyd edilir.

VI mərhələ: Sistemlərin möhkəmləndirilməsi və rəqəmsal inkişaf 2026 və sonrakı dövr

Bu mərhələnin prioritetləri kimi metodoloji sənədlərin versiya nəzarəti, keyfiyyətə nəzarət, elektron xidmətlər, indekslərin hesablanması üzrə şəffaf metodika, beynəlxalq əlaqələr və ictimai hesabatlılığın inkişafı üzərində Palatanın fəaliyyəti qurulub.